İdarəetmə Hesabatı

Tələb olunan məlumat	Təqdim Edilən Məlumat
1. Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi	"Zəyəm Texnologiyalar Parkı" Açıq Səhmdar Cəmiyyəti 14.01.2002-ci il 8500101541
2. Emitentin hüquqi ünvanı və olduğu yer	Hüquqi ünvan Şəmkir rayonu, Zəyəm qəsəbəsi, AZ5730, S.Vurğun küç. 24 Poçt ünvanı Şəmkir rayonu, Zəyəm qəsəbəsi, AZ5730, S.Vurğun küç. 24 Olduğu yer Şəmkir rayonu, Zəyəm qəsəbəsi, AZ5730, S.Vurğun küç. 24
3. Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları	Emitent Azərbaycan Respublikasının Şəmkir rayonunun Zəyəm qəsəbəsinin Səməd Vurğun küçəsi 24 ünvanında yerləşən "Zəyəm kənd təsərrüfatı maşınqayırma" zavodu (" Zəyəmkəndmaş") Azarbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin Dövlət əmlakının Özəlləşdirilməsi departamentinin 24.12.2001-ci il tarixli 290 saylı sərəncamı ilə "Zəyəmkəndmş" açıq səhmdar cəmiyyəti ("Zəyəmkəndmaş" ASC) adlandırılmışdır. "Zəyəmkəndmaş" ASC-nin adi səhmdarların növbəti ümumi yığıncağının 30 iyun 2014-cü il tarixli Protokolunun qararına əsasən dəyişdirilərək "Zəyəm Texnologiyalar Parkı" açıq səhmdar cəmiyyəti ("Zəyəm Texnologiyalar Parkı"ASC) adlandırılmışdır.
4. Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar	Cəmiyyətin heç bir filialı yoxdur.
5. Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti	Cəmiyyətin heç bir filialı yoxdur.

Tələb olunan məlumat	Təqdim Edilən Məlumat
6. Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatıolan qrupdur) adı	Azmade MMC
7. Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri	a.Metaldan tikinti konstruksiyalar, və onların hissələrinin istehsalı (əsas fəaliyyət) b.Yaşayış və qeyri yaşayış binalarının tikintisi c.Dağ-mədən çıxarma, neft çıxarma sanayesi, karxana işləri və tikinti üçün maşın və avadanlıqların istehsalı.
8. Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri	a. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş 28.09.2020 tarixli İNİL-345/2020 saylı lisenziyasına əsasən Tikintisinə icazə tələb olunan bina və qurguların tikinti-quraşdırma işlərinin həyata keçirilməsinə icazə verilir. Lisenziya muddətsiz verilib. b. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş 01.03.2016 tarixli İSNLİ-543/2016 saylı lisenziyaya əsasən Qaldırıcı qurğuların, metallurgiya avadanlığının, təzyiq altında işləyən qazanların, tutumların quraşdırılması və təmirini həyata keçirməyə icazə verir.
9. Emitentin təklif etdiyi məhsullar və xidmətlər	metalkostruksiyaların istehsalı, quraşdırılması, təmir kənd təsərrüfatı təyinatlı qoşquların və avadanlıqların istehsalı, binaların tikintisi.
10. Emitentin işçilərinin sayı və onun rüblük dinamikası	01.01.2024-ci faktiki işçilərin sayı - 212 01.04.2024-ci faktiki işçilərin sayı – 202 01.07.2024-ci faktiki işçilərin sayı – 198 01.10.2024-ci faktiki işçilərin sayı - 190 31.12.2024-ci faktiki şçilərin sayı - 185
11. Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı	**Müşahidə Şurası:** Emruz Xeyrulla oglu İsgəndərov Müşahidə şurasının sədrii Əkbər Kamil oglu İbrahimov Müşahidə şurasının üzvü Tofiq Rafiq oglu Məmmədov Müşahidə şurasının üzvü
12. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı	Hüquqi şəxs 1 Digər fiziki şəxslər 170

Tələb olunan məlumat	Təqdim Edilən Məlumat
13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı	Digər 536 809 sayı 2.93%
14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı)	"Azmade Group" MMC 17 768 437 səhm 97.07%
15. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat	Müşahidə şurasinın yeni tarkiblnin seçilməsi. “Zəyəm Texnologiyalar Parkı" ASC-nin 2024-cu il üçün maliyyə hesabatı haqda məlumat verilməsi və təsdiq edilməsi.
15.1. Yığıncağın keçirilmə tarixi və yeri (ünvan)	28.04.2025 tarixində - Şəmkir rayonu, Zəyəm ŞTQ, Səməd Vurğun, ev 24
15.2. Ümumi yığıncaqda qəbul edilmiş qərarlar	Müşahidə şuraşısının tərkibi eyni qaldı 2024-cü ilin maliyyə hesabatı təsdiqləndi
16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir)	
16.1. İnvestisiya qiymətli kağızın növü və forması	a. Qiymətli kağızın növü və forması: Adi səhm.
16.2. Investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi:	Qeydiyyat nömrəsi və qeydiyyat tarixi: AZ1001003453- 22.05.2023.
16.3. İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri	1 AZN.
16.4. Investisiya qiymətli kağızlar buraxılışınıın məcmu nominal dəyəri	18 305 246.

Tələb olunan məlumat	Təqdim Edilən Məlumat
16.5. Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği	0
16.6. Faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi	0
16.7. investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda)	
17. Emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:	0
17.1. əqdin məbləği:	0
17.2. hesabat tarixinə əqdin ödənilməmiş hissəsi:	0
18. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:	
18.1. bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği:	
18.2. aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi:	
19.İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi	28.04.2024-cu il
20. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat	www.cbar.az/meas

"Zəyəm Texnologiyalar Parkı"ASC-nin

Baş direktoru:

Elnur İdırım oğlu İbrahimov

AZƏRBAYCAN RESPUBLİKASI
ZƏYƏM TEXNOLOGİYALAR PARKI
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

"ZƏYƏM TEXNOLOGİYALAR PARKI"
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Maliyyə Hesabatları və Müstəqil Auditor Rəyi
31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə

"ZƏYƏM TEXNOLOGİYALAR PARKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

MÜNDƏRİCAT

	Səhifə
MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI	1
MÜSTƏQİL AUDİTORUN HESABATI	2
31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARI:	
Mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabat	3
Maliyyə vəziyyəti haqqında hesabat	4
Kapitalda dəyişikliklər haqqında hesabat	5
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat	6
Uçot siyasəti və maliyyə hesabatlarına qeydlər	7-22

MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Müstəqil auditor hesabatının 2-ci səhifədə təqdim olunmuş müstəqil auditor rəyində şərh edilən müstəqil auditorların məsuliyyətinə uyğun oxunmalı olan bu hesabat "ZƏYƏM TEXNOLOGİYALAR PARKI" Açıq Səhmdar Cəmiyyətinin ("Cəmiyyət") maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, əməliyyatlarının nəticələrini və həmin tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkətini, kapitalda dəyişikliklər hesabatını düzgün və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılar üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- MMUS-na uyğunluğun bəyan edilməsi və əgər bu standartlardan əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi; və
- Əgər yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə maliyyə hesabatlarını daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır;

- Cəmiyyətin daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Şirkətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarının bəyan olunması 03 aprel 2025-ci il tarixində Rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

Rəhbərlik tərəfindən:

Elnur İbrahimov
Baş Direktor
03 aprel 2025-ci il
Şəmkir, Azərbaycan Respublikası

Teymur Musadirov
Maliyyə Direktoru
03 aprel 2025-ci il
Şəmkir, Azərbaycan Respublikası

MÜSTƏQİL AUDİTORUN HESABATI

"ZƏYƏM TEXNOLOGİYALAR PARKI" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarları və Rəhbərliyinə:

RƏY

Biz, "Zəyəm Texnologiyalar Parkı" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə mühasibat uçotunun əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir

Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu məcəllənin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Əsas audit məsələləri

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar edir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Rəşid Balakişiyev
Direktor və auditor

24 aprel 2025-ci il
Bakı, Azərbaycan Respublikası

"ZƏYƏM TEXNOLOGİYALAR PARKI" Açıq Səhmdar Cəmiyyəti

Mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabat
31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə
(Azərbaycan manatı ilə)

	Qeydlər	31.12.2024	31.12.2023
Əsas əməliyyat gəliri	5	6 528 084	7 941 782
Satışın maya dəyəri	6	(5 312 304)	(7 117 810)
Ümumi mənfəət		**1 215 780**	**823 972**
Sair əməliyyat gəlirləri	5	27 719	58 350
Kommersiya xərcləri	6	(211 827)	(94 097)
İnzibati xərclər	6	(1 492 159)	(1 242 241)
Sair əməliyyat xərcləri	6	(3 513 739)	(1 151 123)
Əməliyyat mənfəəti (zərəri)		**(3 974 225)**	**(1 605 140)**
Maliyyə gəliri		-	-
Maliyyə xərcləri	6	(102 926)	(120 409)
Vergiqoymadan əvvəl mənfəət (zərər)		**(4 077 151)**	**(1 725 549)**
Mənfəət vergisi xərcəri		-	-
Cari vergi xərci	7	-	-
Təxirə salınmış vergi xərci		-	-
Hesabat dövrünün xalis mənfəəti (zərəri)		**(4 077 151)**	**(1 725 549)**

Rəhbərlik tərəfindən:

ZƏYƏM TEXNOLOGİYALAR PARKI

Elnur İbrahimov
Baş Direktor

03 aprel 2025-ci il
Şəmkir, Azərbaycan Respublikası

Teymur Musadirov
Maliyyə Direktoru

03 aprel 2025-ci il
Şəmkir, Azərbaycan Respublikası

7-22-ci səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir. Müstəqil auditor rəyi 2-ci səhifədə təqdim olunmuşdur.

"ZƏYƏM TEXNOLOGİYALAR PARKI" Açıq Səhmdar Cəmiyyəti
Maliyyə vəziyyəti haqqında hesabat
31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə
(Azərbaycan manatı ilə)

	Qeydlər	31.12.2024	31.12.2023
AKTIVLƏR			
UZUNMÜDDƏTLİ AKTİVLƏR:			
Qeyri-maddi aktivlər	*8*	543 664	546 032
Torpaq, tikili və avadanlıq	*9*	11 024 861	11 756 511
Investisiya mülkiyyəti	*10*	-	-
Təxirə salınmış vergi aktivi	*7*	-	-
CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR:		**11 568 525**	**12 302 543**
QISAMÜDDƏTLİ AKTİVLƏR:			
Ehtiyatlar	*11*	1 214 153	1 534 486
Qısamüddətli debitor borcları	*12*	1 581 618	4 952 109
Pul vəsaitləri və onların ekvivalentləri	*13*	381 990	282 223
Sair qısamüddətli aktivlər	*14*	1 338 760	3 802 615
CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR:		**4 516 521**	**10 571 433**
CƏMİ AKTİVLƏR		**16 085 046**	**22 873 976**
KAPİTAL VƏ ÖHDƏLİKLƏR			
KAPİTAL:			
Ödənilmiş nominal (nizamnamə) kapitalı	*15*	18 305 246	18 305 246
Kapital ehtiyatları	*16*	11 276 438	11 276 438
Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	*17*	(25 885 338)	(21 385 558)
CƏMİ KAPİTAL:		**3 696 346**	**8 196 125**
UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR:			
Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər	*18*	-	849 381
Uzunmüddətli kreditor borcları	*19*	-	-
Sair uzunmüddətli öhdəliklər	*20*	9 394 650	9 442 413
		9 394 650	**10 291 794**
QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR:			
Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər	*21*	1 069 292	1 931 106
Qısamüddətli kreditor borcları	*22*	818 486	1 421 643
Sair qısamüddətli öhdəliklər	*23*	1 106 272	1 033 308
		2 994 050	**4 386 057**
Cəmi öhdəliklər		**12 388 700**	**14 677 851**
CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR		**16 085 046**	**22 873 976**

Rəhbərlik tərəfindən:

Elnur İbrahimov
Baş Direktor
03 aprel 2025-ci il
Şəmkir, Azərbaycan Respublikası

Teymur Musadirov
Maliyyə Direktoru
03 aprel 2025-ci il
Şəmkir, Azərbaycan Respublikası

7-22-ci səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir. Müstəqil auditor rəyi 2-ci səhifədə təqdim olunmuşdur.

"ZƏYƏM TEXNOLOGİYALAR PARKI" Açıq Səhmdar Cəmiyyəti

Kapitalda dəyişikliklər haqqında hesabat
31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə
(Azərbaycan manatı ilə)

	Ödənilmiş nizamnamə kapitalı	Kapital Ehtiyyatları	Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	Cəmi kapital
31 dekabr 2023-cü il tarixinə qalıq	**18 305 246**	**11 276 438**	**(21 385 558)**	**8 196 125**
Hesabat dövründə xalis mənfəət (zərər)	-	-	*(4 077 151)*	*(4 077 151)*
Yenidənqiymətləndirmə üzrə ehtiyat	-	-	-	-
Düzəlişlər		-	*(422 629)*	*(422 629)*
31 dekabr 2024-cü il tarixinə qalıq	**18 305 246**	**11 276 438**	**(25 885 338)**	**3 696 346**
2024-cü il üzrə kapitalda ümumi dəyişikliklər	-	-	*(4 499 780)*	*(4 499 780)*
31 dekabr 2022-ci il tarixinə qalıq	**18 305 246**	**11 276 438**	**(19 660 009)**	**9 921 674**
Hesabat dövründə xalis mənfəət (zərər)	-	-	*(1 725 549)*	*(1 725 549)*
Yenidənqiymətləndirmə üzrə ehtiyat	-	-	-	-
Düzəlişlər		-	-	-
31 dekabr 2023-cü il tarixinə qalıq	**18 305 246**	**11 276 438**	**(21 385 558)**	**8 196 125**
2023-ci il üzrə kapitalda ümumi dəyişikliklər	-	-	*(1 725 549)*	*(1 725 549)*

Rəhbərlik tərəfindən:

AZƏRBAYCAN RESPUBLİKASI ZƏYƏM TEXNOLOGİYALAR PARKI SƏHMDAR CƏMİYYƏTİ

Elnur İbrahimov
Baş Direktor

03 aprel 2025-ci il
Şəmkir, Azərbaycan Respublikası

Teumur Musadirov
Maliyyə Direktoru

03 aprel 2025-ci il
Şəmkir, Azərbaycan Respublikası

7-22-ci səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir. Müstəqil auditor rəyi 2-ci səhifədə təqdim olunmuşdur.

"ZƏYƏM TEXNOLOGİYALAR PARKI" Açıq Səhmdar Cəmiyyəti

Pul vəsaitinin hərəkəti haqqında hesabat
31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə
(Azərbaycan manatı ilə)

	Qeydlər	31.12.2024	31.12.2023
Müştərilərdən daxil olan pul vəsaitləri		8 327 354	8 564 580
Təchizatçılara və işçilərə ödənilən pul vəsaitləri		(8 235 285)	(9 546 921)
Əməliyyatlardan əldə olunan pul vəsaitləri		**92 069**	**(982 342)**
Ödənilmiş mənfəət vergisi		-	-
Əməliyyat fəaliyyətindən xalis pul vəsaitlərinin hərəkəti		**92 069**	**(982 342)**
Uzunmüddətli aktivlərin satışı		-	-
Uzunmüddətli aktivlərin alışı		(93 503)	(76 971)
Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları		-	-
Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin daxilolmaları		-	-
İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti		**(93 503)**	**(76 971)**
Səhmdarlara ödənişlər		-	-
Səhmdarlardan daxilolmalar		972 900	1 021 750
Uzunmüddətli faiz yaradan öhdəliklərin artması (azalması)		(7 283 258)	
Uzunmüddətli faiz yaradan öhdəliklərin artması (azalması)		6 433 877	179 588
Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin hərəkəti		**123 519**	**1 201 338**
Mübadilə məzənnələrinin dəyişməsinin təsiri		(22 318)	-
Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)		**99 767**	**142 025**
Pul vəsaitləri və onların ekvivalentləri, *ilin əvvəlində*	*13*	282 223	140 198
Pul vəsaitləri və onların ekvivalentləri, *ilin sonunda*	*13*	381 990	282 223
Pul vəsaitləri və onların ekvivalentlərinin komponentləri		-	-
Pul vəsaitləri		381 990	282 223
Bank depoziti		-	-

Rəhbərlik tərəfindən:

Elnur İbrahimov
Baş Direktor

03 aprel 2025-ci il
Şəmkir, Azərbaycan Respublikası

Teymur Musadirov
Maliyyə Direktoru

03 aprel 2025-ci il
Şəmkir, Azərbaycan Respublikası

7-22-ci səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir. Müstəqil auditor rəyi 2-ci səhifədə təqdim olunmuşdur.

1. CƏMİYYƏT HAQQINDA MƏLUMAT

"ZƏYƏM TEXNOLOGİYALAR PARKI" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra "Cəmiyyət") 14 yanvar 2002-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində "ZƏYƏMKƏNDMAŞ" ASC olaraq qeydiyyata alınmışdır. Cəmiyyət 2014-cü ildən "ZƏYƏM TEXNOLOGİYALAR PARKI" ASC adı ilə fəaliyyət göstərir. Cəmiyyətin nizamnamə kapitalı 18 305 246 manat olmaqla, hər birinin nominal dəyəri 1,00 manat olan 18 305 246 ədəd adi adlı sənədsiz səhmlərdən ibarətdir.

Cəmiyyətin fəaliyyətinin predmeti mənfəət əldə etməkdir.

Cəmiyyətin əsas fəaliyyəti aşağıdakılardan ibarətdir:

- Metaldan tikinti konstruksiyaları və onların hissələrinin istehsalı;
- Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə qadağan olunmayan digər fəaliyyət növləri;

31 dekabr 2024-cü və 31 dekabr 2023-cü il tarixlərinə Cəmiyyətin nizamnamə kapitalında səhmdarın payı aşağıdakı kimi olmuşdur:

Səhmdarlar	**31.12.2024**	**31.12.2023**
"Azmade Group" MMC	97.06%	97.06%
Fiziki şəxslər	2.94%	2.94%
Cəmi	**100%**	**100%**

Cəmiyyətin hüquqi ünvanı: AZ5700, Şəmkir r., Zəyəm ŞTQ., Səməd Vurğun küç., ev 24
Cəmiyyətin faktiki ünvanı: AZ5700, Şəmkir r., Zəyəm ŞTQ., Səməd Vurğun küç., ev 24

İdarəetmə Cəmiyyətin Baş Direktoru İbrahimov Elnur İldırım oğlu tərəfindən Müşahidə Şurası Üzvlərinin nəzarəti ilə həyata keçirilir.

Bu maliyyə hesabatları 03 aprel 2025-ci il tarixində Rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

2. ƏMƏLİYYAT MÜHİTİ

Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar sənayenin bu sahəsinin bazarının da genişlənməsi və inkişafına müsbət təsir göstərir. Müvafiq olaraq yerli qanunvericilik aktları da müxtəlif əlavə və dəyişikliklərə məruz qalır.

2024-cü il ərzində bir sıra iqtisadi sahələrdə inkişaf dinamikasında müsbət artım müşahidə olunmuşdur. Göstərilənlərlə əlaqədar, maliyyə bazarlarında likvidlik səviyyəsinin gələcəkdə artması və ya qeyri-sabitliyin müşahidə olunması Cəmiyyətin maliyyə vəziyyətinə təsirini dəqiq proqnozlaşdırılmaq mümkün deyil.

3. TƏQDİMATIN ƏSASI

Təqdimatın əsası

Cəmiyyət mühasibat uçotunu Azərbaycan Respublikasının qanunveriviliyinə uyğun olraq aparır. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu haqqında qanunveriviliyi əsasında hazırlanmış və MHBS-na uygunlaşdırılmışdır.

Maliyyə hesabatlarının hazırlanmasında hesabat tarixinə aktiv və öhdəliklərin qeyd olunmuş məbləğlərinə və hesabat dövründə gəlir və xərclərin qeydə alınmış məbləğlərinə təsir edə biləcək hesablamalardan istifadə olunur.

Əməliyyat valyutası

Təqdim olunan maliyyə hesabatlarında əməliyyat valyutası Azərbaycan Manatıdır ("AZN").

4. UÇOT SİYASƏTLƏRİ

Aşağıdakı uçot siyasətləri əsaslı surətdə əhəmiyyətli olan maddələrə müvafiq olaraq Cəmiyyətin maliyyə hesabatlarında tətbiq edilmişdir.

Uçot metodu

Maliyyə hesabatları ilkin dəyər konsepsiyası əsasında hazırlanmışdır.

Əsas əməliyyat gəliri

Əsas əməliyyat gəliri hesablama metodu əsasında tanınır və tanınma alıcı ilə müqavilənin bağlandığı andan başlanır.

Digər gəlirlər

Digər gəlirlər aidiyyatı əməliyyatlar başa çatdıqda gəlir kimi qeyd edilir. Əməliyyat xərcləri və digər xərclər adətən mallar alındıqda və ya xidmətlər yerinə yetirildikdə hesablama metodu ilə qeyd olunur.

Pul vəsaitləri və ekvivalentləri

Pul vəsaitləri – nağd pul vəsaitləri, bank hesablarında saxlanılan və tələblər üzrə verilən pul vəsaitləridir.

Pul vəsaitlərinin ekvivalentləri – ödəmə müddəti üç ayadək olan, pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin dəyişməsi kimi cüzi riskə məruz qalan qısamüddətli qoyuluşlardır. Pul vəsaitlərinin ekvivalentlərinə hesabat ilinin sonunda xalis pul vəsaitləri və onların ekvivalentlərinə əlavə edilən hər-hansı bank overdraftı da daxildir.

Banklarda yerləşdirilmiş əmanətlər

Banklarda yerləşdirilmiş əmanətlər qarşı tərəfə pulun birbaşa verilməsindən yaranır. Banklarda yerləşdirilmiş əmanətlər pul vəsaitinin qarşı tərəfə ödəmə şəklində verildikdə qeydə alınır.

Ödəniş tarixinədək saxlanılan investisiyalar

Ödəniş tarixinədək saxlanılan investisiyalar müəyyənləşdirilən və sabit ödənişli borc qiymətli kağızlarıdır. Bu cür qiymətli kağızlar ilk olaraq ədalətli dəyər üstəgəl birbaşa əməliyyat xərcləri məbləğində tanınır.

Alınacaq vəsaitlər və qabaqcadan ödəmələr

Alınacaq vəsaitlər göstərilmiş xidmətlər nəticəsində yaranan debitor borclardan və digər vəsaitlərdən ibarətdir. Debitor və kreditor borcları bunun üçün hüquqi əsas olduqda əvəzləşdirilir. Cəmiyyət xalis və ya birgə hesablaşma niyyətinə malik olur. Alınacaq vəsaitlər müqavilə bağlandığı tarixdə qeydə alınır və xidmətlər göstərildiyi zaman mənfəət və zərər hesabatına yazılır. Qabaqcadan ödəmələr ödəmə tarixində qeydə alınır və xidmətlər yerinə yetirildikdə mənfəət və zərər hesabatına daxil edilir.

Torpaq, tikili, avadanlıq və amortizasiya

Aktiv kimi tanına bilən torpaq, tikili və avadanlıq obyekti əldə olunan zaman ilkin dəyəri əsasında tanınır. "İlkin dəyər" ödənilmiş pul və ya pul ekvivalentlərinin məbləğinə və ya ödənilmiş hər hansı digər əvəzləşdirmənin ədalətli dəyərinə bərabərdir. Əsas vəsaitlər yığılmış köhnəlmə və hər hansı qiymətdən düşmə zərəri çıxılmaqla ilkin dəyərlə tanınır ("ilkin dəyər modeli"). Torpaq istisna olmaqla əsas vəsaitlərin köhnəlməsi **"azalan qalıq metodu"** əsasında aktivlərin illik köhnəlmə dərəcələrini istifadə etməklə hesablanır. Hər bir əsas vəsaitə fərdi surətdə yanaşılmaqla onun faydalı istismar müddəti müəyyən edilmiş və istismar illərinə bölünməklə amortizasiya hesablanır.

Hər bir maliyyə ilinin sonunda aktivlərin qiymətdən düşmə zərərini müəyyən etmək üçün ilkin dəyərə əsaslanan balans dəyəri ilə bərpa oluna bilən dəyəri müqayisə edilir. Əgər balans dəyəri bərpa oluna bilən dəyərindən əhəmiyyətli dərəcədə artıq olarsa, bu iki dəyər arasındakı fərq mənfəət və zərər haqqında hesabatda xərc kimi göstərilməklə balans dəyəri bərpa oluna bilən dəyərə qədər silinir.

Ehtiyatlar

Ehtiyatlar ilkin dəyər və ehtimal edilən satış dəyərindən daha az olan dəyərlə qiymətləndirilirlər.

Vergilər

Vergilərin məbləği balans tarixinə qüvvədə olan vergi qanunvericiliyinə uyğun olaraq hesablanır.

Mənfəət vergisi

Mənfəət vergisi xərcləri cari vergilərdən və təxirə salınmış vergilər üzrə xərclərdən ibarətdir.

Cari mənfəət vergisi - balans hesabatı tarixinə qüvvədə olan vergi dərəcələrini istifadə etməklə dövr üzrə gözlənilən vergiyə cəlb olunan mənfəət əsasında hesablanır. Hesabatdakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə (müvəqqəti fərqlər) və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə (daimi fərqlər) vergi mənfəəti hesabatdakı mənfəətdən fərqlənir.

Təxirə salınmış mənfəət vergisi – cari və keçmiş dövrlərin maliyyə hesabatlarında tanınan əməliyyat və hadisələrin qiymətlədirilmiş gələcək vergi nəticələridir. Təxirə salınmış vergi elə mühasibat qeydidir ki, müvəqqəti fərqlər üzrə nəticələnə biləcək uçot mənfəəti və vergi mənfəəti arasında mövcud olan əlaqə ilə bağlı istənilən təhrifin aradan qaldırılmasını təsvir edir. ***Təxirə salınmış vergi öhdəlikləri*** – vergi tutulan müvəqqəti fərqlər ilə əlaqədar gələcəkdə ödənilməli olan mənfəət vergisinin məbləğidir. Vergi tutulan müvəqqəti fərqlərin mövcud olduğu yerlərdə vergi xərci nəzərdə tutulan gələcək vergi xərci vasitəsilə artırılır və öhdəlik kimi

mühasibat balansında tanınır. ***Təxirə salınmış vergi aktivləri*** – çıxılan müvəqqəti fərqlərin nəticəsi kimi yaranana və gələcək dövrlərdə əvəzi alınmalı olan mənfəət vergisi məbləğləridir.

Təxirə salınmış vergi aktivləri və öhdəliklərinin qiymətləndirilməsi – aktivin realizasiya olunacağı və ya öhdəliyin yerinə yetiriləcəyi dövrə tətbiq edilməsi gözlənilən balans hesabatı tarixinə qüvvədə olan vergi dərəcələri əsasında qiymətləndirilməlidir. Lakin balans hesabatı tarixinə hökumət gələcək illərdə vergi dərəcəsini dəyişəcək qanunvericilik aktlarını qəbul edərsə, bu zaman gələcəkdə qüvvədə olacaq dərəcə istifadə olunmalıdır.

Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa mənfəət və ya zərər hesabında əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər səhmdar kapitalında öz əksini tapır.

İnvestisiyalar

Digər müəssisələrin qiymətli kağızlarına və aktivlərinə qısamüddətli və uzunmüddətli investisiyalar ilkin dəyər və ehtimal edilən satış dəyərindən daha az olan dəyərlə tanınır.

Ödəniş tarixinədək saxlanılan investisiyalar

Adətən aşağıdakı beş meyara uyğun olduğu zaman investisiyalar "ödəniş müddətinə qədər saxlanılan investisiyalar" kimi təsnifləşdirilir:

- qeyri-törəmə aktivlərdir;
- sabit və ya müəyyənləşdirilə bilən ödənişlərdir;
- sabit ödəmə müddətinə malik olmalıdırlar;
- müəssisənin aktivləri ödəniş müddətinə qədər saxlamaq üzrə kəskin niyyəti vardır;
- müəssisənin aktivləri ödəniş müddətinə qədər saxlamaq üçün maliyyə imkanına malikdir.

Maliyyə alətləri və onların ədalətli dəyəri

Maliyyə alətləri bir müəssisənin maliyyə aktivlərinin və digər müəssisənin maliyyə öhdəliyinin yaranmasına səbəb olan hər hansı sənəd və ya müqavilədir. Bu ikili aspekt hər zaman mövcud olmalıdır. Əgər bu aspektlərdən hər hansı biri mövcud deyilsə, onda müqavilə maliyyə aləti deyildir.

Ədalətli dəyər, məcburi satış və ya ləğvetmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və sərbəst katirovkası olan bazar qiymətləri ilə təsdiqlənir.
Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Cəmiyyət tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən Rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

Maliyyə aktivləri
Pul vəsaiti, digər müəssisədə kapital aləti (yəni, bir qayda olaraq səhmlər), digər müəssisədən pul vəsaiti almaq üzrə müqavilə hüququ, müəssisənin əlverişli şərtlər əsasında öz maliyyə aktivlərini və öhdəliklərini mübadilə etməsi üzrə müqavilə hüququ, müəssisənin ödənişi öz səhmlərinin potensial olaraq dəyişən sayı formasında qəbul etməsini tələb edən müqavilə hüququ, müəssisənin öz səhmlərinin sabit sayı üzrə hesablaşması ilə əlaqədar törəmə müqavilə maliyyə aktivləri hesab olunur.

Maliyyə öhdəlikləri

Digər müəssisəyə pul vəsaitinin ödənilməsi ilə əlaqədar müqavilə öhdəliyi (kreditor borclar, kreditlər), müəssisə üçün əlverişli ola bilməyən maliyyə aktivləri və ya maliyyə öhdəliklərinin mübadiləsi ilə əlaqədar olan müqavilə öhdəliyi, müəssisənin ödənişi öz səhmlərinin potensial olaraq dəyişən sayı formasında həyata keçiməsini tələb edən müqavilə öhdəliyi, müəssisənin öz səhmlərinin sabit sayı üzrə hesablaşması ilə əlaqədar törəmə müqavilə öhdəliyi maliyyə öhdəlikləri hesab olunur.

Maliyyə aktivi və ya maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyəri və effektiv faiz metodu

Bu iki anlayış maliyyə aktivi və ya maliyyə öhdəliyinin ilkin tanınma dəyəri üzrə tələb olunan hesablamalara aid edilir. Amortizasiya edilmiş dəyər sadəcə olaraq müddət üzrə pul vəsaitlərinin hərəkətini deyil, aktiv (və ya öhdəlik) müddətində qazanılmış real maliyyə gəlirlərini (və ya yaranmış məsrəfləri) nəzərdə tutur. Effetiv faiz dərəcəsi diskontlaşdırma əmsalı kimi istifadə olunaraq gələcək gəlir axını (investisiyadan gələn) xalis balans dəyərinə endirilir. Həmin faiz dərəcəsi sonradan aktivin əldə edildiyi hər bir müddət üzrə əldə olunan maliyyə gəlirlərini müəyyənləşdirmək üçün istifadə olunur. İl ərzində qazanılan real faiz dərəcəsini və illik faktiki pul vəsaiti gəlirini müəyyənləşdirdikdən sonra, aktivin balans dəyəri hesablanır.

Qiymətləndirilmiş öhdəliklər

Gələcəkdə yaranacaq öhdəlik ehtimal edildikdə, bu ehtimal yarandığı andan bəri qeyd edilmiş öhdəlik qiymətləndirilmiş öhdəlik kimi tanınır.

Xarici valyuta əməliyyatı

Cəmiyyətin əməliyyat valyutası manatdır. Xarici valyutada olan monetar maddələr (kassa qalığı, hesab qalığı, debitor borclar, kreditor borclar, öhdəliklər və s.) Cəmiyyətin balans hesabatının bağlandığı tarixə (31 dekabr) olan valyuta məzənnəsindən istifadə etməklə hesabat verdiyi valyutaya dəyişilir. Xarici valyutada olan maya dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr tanınmış maya dəyəri nəticəsində ilkin əməliyyatın aparıldığı zaman mövcud olan valyuta məzənnəsi istifadə olmaqla çevrilir. Xarici valyutada olan ədalətli dəyər ilə qiymətləndirilən (və ya yenidən qiymətləndirilmiş) qeyri-monetar maddələr ədalətli dəyər müəyyən edilən (və ya yenidən qiymətləndirilmə aparılan) günə olan valyuta məzənnəsi istifadə olunmaqla çevrilir.

Xarici valyuta ilə ifadə olunmuş monetar maddələr ilə əlaqədar yaranan məzənnə fərqləri mənfəət və zərər haqqında hesabat vasitəsilə mühasibat uçotuna daxil edilir. Qeyri-monetar maddələrlə bağlı digər mənfəət və ya zərərin mənfəət və zərər haqqında hesabat vasitəsilə tanındığı hallarda yaranan məzənnə fərqləri də həmçinin bu hesabatlara daxil edilir. Mənfəət və ya zərərlər kapital vasitəsilə tanındığı hallarda müvafiq olaraq, məzənnə fərqləri də həmçinin kapital vasitəsilə tanınır.

Xarici valyuta balansında istifadə olunan əsas dərəcə Azərbaycan Respublikası Mərkəzi Bankının ("ARMB") rəsmi məzənnələri əsasında aşağıda göstərilib:

	31.12.2024	31.12.2023
AZN/1 ABŞ dolları	1.7000	1.7000
AZN/1 Avro	1.7724	1.8766

Əvəzləşdirmə

Maliyyə aktivləri və öhdəlikləri yalnız o zaman əvəzləşdirilir ki, qarşılıqlı əvəzləşdirmənin həyata keçirilməsi üçün qanuni hüquq mövcud olmalı, iki alətin qarşılıqlı əvəzləşdirilməsi niyyəti və hər iki müqavilənin eyni zamanda reallaşdırılması niyyəti olsun.

İşçi heyəti ilə bağlı xərclər və aidiyyatı ayırmalar

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq Cəmiyyət işçilərin əmək haqlarından məcburi sosial sığorta haqları tutur və onları Dövlət Sosial Müdafiə Fonduna köçürür. Bundan əlavə bu tip təqaüd sistemi işəgötürən tərəfindən işçilərin əmək haqqı fondunun müəyyən faizi kimi Dövlət Sosial Müdafiə Fonduna məcburi sosial sığorta haqları ayırmalarını nəzərdə tutur. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər Dövlət Sosial Müdafiə Fondu tərəfindən yerinə yetirilir. Cəmiyyət Dövlət Sosial Müdafiə Fondunun qaydalarından əlavə ümumi əmək haqqı ödənişlərinin faizi kimi hesablanmış işçilər tərəfindən cari yardımları tələb edən pensiya ilə bağlı hər hansı fərdi qaydalara malik deyildir. Bundan başqa, Cəmiyyətdə hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

Səhmdar kapitalı

Səhmdar kapitalı ilkin dəyər ilə tanınır. Səhmdarların pulu vəsait şəklində deyil, aktiv və ya başqa formada kapitala əlavə etdikdə onların dəyəri əməliyyatın aparıldığı tarixə ədalətli dəyər ilə qeydə alınır.

5. GƏLİRLƏRİN TƏHLİLİ

31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərində başa çatmış illər üzrə Cəmiyyətin **gəlirləri** aşağıdakı kimi olmuşdur:

	31.12.2024	31.12.2023
Əsas əməliyyat gəlirləri	**6 528 084**	**7 941 782**
Digər əməliyyat gəlirləri, ondan	**27 719**	**58 350**
Xidmət	-	-
Sair	*17 715*	*33 072*
Müsbət məzənnə fərqi	*10 004*	*25 278*
Mənfəət vergisi gəliri	-	-
Təxirə salınmış vergi aktivi	-	-
Cəmi gəlirlər	**6 555 803**	**8 000 132**

6. SATIŞIN MAYA DƏYƏRİ, KOMMERSİYA VƏ İNZİBATİ XƏRCLƏR

31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixində başa çatmış illlər üzrə Cəmiyyətin maya dəyəri üzrə, inzibati və sair əməliyyat xərcləri aşağıdakı kimi olmuşdur.

	31.12.2024	31.12.2023
Satışın maya dəyəri	**5 312 304**	**7 117 810**
Kommersiya xərcləri	**211 827**	**94 097**
Rabitə	*220*	*165*
Əmək haqqı	*93 738*	*29 708*
Nəqliyyat xərcləri	*4 420*	*55 337*
Marketing	*17 598*	-
Sair	*95 851*	*8 887*
İnzibati xərclər	**1 492 159**	**1 242 241**
Təmir	*2 832*	*7 599*
Xidmətlər	*100 046*	*67 564*
Mal-material	*20 147*	*13 392*
Əmək haqqı	*1 243 881*	*1 069 888*
Rabitə xidməti	*11 499*	*9 819*
Marketinq	-	-
Nəqliyyat	*35 356*	*25 843*
Sair	*57 365*	*25 600*
Kommunal xərclər	*21 033*	*22 536*
Sair əməliyyat xərcləri	**3 513 739**	**1 151 123**
Digər xərclər	*2 458 066*	*44 972*
Boş dayanma ilə bağlı xərclər	*70 508*	*19 951*
Mənfi məzənnə fərqi	*23 830*	*53 189*
Amortizasiya	*961 335*	*1 033 011*
Maliyyə xərcləri	**102 926**	**120 409**
Kredit faizi	*102 926*	*120 409*
Mənfəət vergisi xərcləri	-	-
Cari mənfəət vergisi	-	-
Cəmi xəclər	**10 632 955**	**9 725 680**

7. MƏNFƏƏT VERGİSİ

Cəmiyyət vergi hesabatlarını Azərbaycan Respublikasının yerli vergi qanunvericiliyinin tələbləri əsasında hazırlayır və bu tələblər maliyyə hesabatlarının tələblərindən fərqlənir.

Təxirə salınmış vergilər maliyyə və vergi hesabatları üçün nəzərdə tutulmuş cari aktiv və öhdəliklərin balans dəyəri arasında olan müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir.

2024-cü ilin yekununa görə Cəmiyyətdə mənfəət yaranmadığı üçün mənfəət vergisi öhdəliyi yaranmamışdır.

8. QEYRİ MADDİ AKTİVLƏR

İlkin dəyəri	
01.01.2024 tarixə ilkin dəyəri	**576 998**
Daxil olmuşdur	20 000
Silinmişdir	-
31.12.2024 tarixə ilkin dəyəri	**596 998**
Yığılmış amortizasiya	
01.01.2024 tarixə yığılmış amortizasiya	**30 966**
Silinmişdir	-
Təsnifatın dəyişməsi	-
Hesabat ilində amortizasiya	22 368
31.12.2024 tarixə yığılmış amortizasiya	**53 334**
01.01.2024-ci il tarixə qalıq dəyəri	**546 032**
31.12.2024-ci il tarixə qalıq dəyəri	**543 664**

İlkin dəyəri	
01.01.2023 tarixə ilkin dəyəri	**80 313**
Daxil olmuşdur	496 685
Silinmişdir	-
31.12.2023 tarixə ilkin dəyəri	**576 998**
Yığılmış amortizasiya	
01.01.2023 tarixə yığılmış amortizasiya	**26 823**
Silinmişdir	-
Təsnifatın dəyişməsi	-
Hesabat ilində amortizasiya	4 143
31.12.2023 tarixə yığılmış amortizasiya	**30 966**

01.01.2023 tarixə qalıq dəyəri	**53 490**
31.12.2023 tarixə qalıq dəyəri	**546 032**

9. TORPAQ, TİKİLİ VƏ AVADANLIQLAR

2024-cü ildə 45 487 manat məbləğ torpaq, tikili və avadanlıqlar üzrə kapitallaşdırılmışdır. Cəmiyyətin balansında 5 256 manat dəyərində torpaq sahəsi vardır. Torpaq, tikili və avadanlıqlar barədə məlumat isə aşğıdakı kimidir:

İlkin dəyəri	**Torpaq, tikili və avadanlıqlar**	**Maşın və avadanlıqlar**	**Nəqliyyat vasitələri**	**Hesablama texnikası**	**Digər əsas vəsaitlər**	**Cəmi**
01.01.2024 tarixə ilkin dəyəri	**12 335 301**	**7 905 800**	**147 247**	**83 755**	**298 293**	**20 770 395**
Daxil olmuşdur	107 624	16 559	56 600	29 528	6 621	216 933
Təmir xərci limitdən artıq	-	-	-		-	-
Silinmişdir	-	-	-		-	-
Düzəliş	-	-	-		-	-
31.12.2024 tarixə ilkin dəyəri	**12 442 925**	**7 922 359**	**203 847**	**113 283**	**304 914**	**20 987 328**
Yığılmış amortizasiya						
01.01.2024 tarixə yığılmış amortizasiya	**3 852 567**	**4 919 696**	**77 822**	**41 611**	**177 292**	**9 068 988**
Düzəliş	-	-	-	-	-	-
Silinmişdir	-	-	-	-	-	-
Təsnifatın dəyişməsi	-	-	-	-	-	-
Hesabat ilində amortizasiya	597 543	277 139	14 084	17 245	32 954	938 966
31.12.2024 tarixə yığılmış amortizasiya	**4 450 110**	**5 196 835**	**91 906**	**58 856**	**210 247**	**10 007 954**

01.01.2024 tarixə qalıq dəyəri	**8 482 734**	**2 986 104**	**69 425**	**42 144**	**121 000**	**11 701 407**
31.12.2024 il tarixə qalıq dəyəri	**7 992 815**	**2 725 523**	**111 941**	**54 427**	**94 667**	**10 979 374**

İlkin dəyəri	**Torpaq, tikili və avadanlıqlar**	**Maşın və avadanlıqlar**	**Nəqliyyat vasitələri**	**Hesablama texnikası**	**Digər əsas vəsaitlər**	**Cəmi**
01.01.2023 tarixə ilkin dəyəri	**12 291 621**	**7 866 688**	**100 853**	**-**	**318 591**	**20 577 753**
Daxil olmuşdur	43 680	39 112	46 394	83 755	-	212 941
Silinmişdir	-	-	-	-	(20 298)	(20 298)
Düzəliş	-	-	-	-	-	-
31.12.2023 tarixə ilkin dəyəri	**12 335 301**	**7 905 800**	**147 247**	**83 755**	**298 293**	**20 770 395**
Yığılmış amortizasiya						
01.01.2023 tarixə yığılmış amortizasiya	**3 215 525**	**4 582 254**	**68 942**	**-**	**173 399**	**8 040 120**
Düzəliş	-	-	-	-	-	-
Silinmişdir		-	-		-	-
Təsnifatın dəyişməsi	-	-	-		-	-
Hesabat ilində amortizasiya	637 042	337 442	8 880	41 611	3 893	1 028 868
31.12.2023 tarixə yığılmış amortizasiya	**3 852 567**	**4 919 696**	**77 822**	**41 611**	**177 292**	**9 068 988**
01.01.2023 tarixə qalıq dəyəri	**9 076 096**	**3 284 434**	**31 911**	**-**	**145 192**	**12 537 633**
31.12.2023 tarixə qalıq dəyəri	**8 482 735**	**2 986 104**	**69 425**	**42 144**	**121 000**	**11 701 407**

2023-ci ildə 55 104 manat məbləğ torpaq, tikili və avadanlıqlar üzrə kapitallaşdırılmış idi. Cəmiyyətin balansında 5 256 manat dəyərində torpaq sahəsi vardır.

10. İNVESTİSİYA MÜLKİYYƏTİ

	31.12.2024	31.12.2023
Kapital qoyuluşu	-	-

11. EHTİYATLAR

	31.12.2024	31.12.2023
Material	1 163 510	1 024 516
Hazır məhsul	50 643	509 970
	1 214 153	**1 534 486**

12. QISAMÜDDƏTLİ DEBİTOR BORCLARI

	31.12.2024	31.12.2023
Sifarişçilərin qısamüddətli debitor borcları	674 229	4 952 109
Verilmiş avanslar	-	-
Büdcə ilə hesablaşmalar	907 389	-
Əmək haqqı	-	-
Sair	-	-
	1 581 618	**4 952 109**

13. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

	31.12.2024	31.12.2023
Kassa vəsaitləri	691	2 120
Banklardakı hesablaşma hesabları		
-Azərbaycan manatı	212 395	106 164
-Xarici valyuta	-	-
Banklardakı xüsusi hesablar	-	-
ƏDV depozit hesabı	168 904	173 939

	381 990	**282 223**

14. SAİR QISAMÜDDƏTLİ AKTİVLƏR:

	31.12.2024	31.12.2023
Əvəzləşdirilən əlavə dəyər vergisi	923 182	1 226 117
Gələcək hesabat dövrlərinin xərcləri	-	1 448 609
Avanslar üzrə hesablaşmalar	415 578	1 127 889
	1 338 760	**3 802 615**

15. NİZAMNAMƏ KAPİTALI

31 dekabr 2024-cü il tarixinə Cəmiyyətin nizamnamə kapitalı hər birinin nominal dəyəri 1,00 manat olmaqla 18 305 246 ədəd adi adlı sənədsiz səhmdən ibarət olmaqla 18 305 246 manat təşkil etmişdir.

16. KAPİTAL EHTİYATLARI

Cəmiyyətin 31 dekabr 2023 və 31 dekabr 2024-cü il tarixinə 11 276 438 manat kapital ehtiyat mövcud olmuşdur.

17. BÖLÜŞDÜRÜLMƏMİŞ MƏNFƏƏT (ÖDƏNİLMƏMİŞ ZƏRƏR)

Cəmiyyət 2024-cü il ərzində 4 077 151 manat zərər əldə etmişdir. Bundan başqa il ərzində vergi orqanı ilə aparılmış yazışmalara əsasən 422 629 manat zərər də 2023-cü ilin fəaliyyətinə əsasən əlavə hesablanmış və bu məbləğ 2024-cü ilin maliyyə hesabatlarında düzəliş kimi qeyd edilmişdir.

18. UZUNMÜDDƏTLİ FAİZ XƏRCLƏRİ YARADAN ÖHDƏLİKLƏR

	31.12.2024	31.12.2023
Bank kreditləri	-	849 381

	=	**849 381**

19. UZUNMÜDDƏTLİ KREDİTOR BORCLARI

	31.12.2024	31.12.2023
Alıcıların uzunmüddətli borcları	-	-
Alınmış borclar	-	-
	=	=

20. SAİR UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR

	31.12.2024	31.12.2023
Səhmdarlarla hesablaşmalar	9 394 650	8 421 750
Digər öhdəliklər	-	1 020 663
	9 394 650	**9 442 413**

21. VERGİ VƏ SAİR MƏCBURİ ÖDƏNİŞLƏR ÜZRƏ ÖHDƏLİKLƏR

	31.12.2024	31.12.2023
Vergilərlə hesablaşmalar	1 044 462	1 931 106
Sosial ödənişlər	24 830	-
	1 069 292	**1 931 106**

22. QISAMÜDDƏTLİ KREDİTOR BORCLARI

	31.12.2024	31.12.2023
Malsatan və podratçılara qısamüddətli kreditor borcu	770 655	1 372 388
Əmək haqqı borcu	47 831	49 255
Alınmış qısamüddətli avanslar	-	-

	818 486	**1 421 643**

23. SAİR QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR

	31.12.2024	**31.12.2023**
Digər öhdəliklər	889 815	-
Alınmış avanslar	216 457	1 033 308
	1 106 272	**1 033 308**

24. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

	31.12.2024		**31.12.2023**	
	Əlaqəli tərəflərlə əməliyyatlar	**Maliyyə hesabatları üzrə ümumi**	**Əlaqəli tərəflərlə əməliyyatlar**	**Maliyyə hesabatları üzrə ümumi**
Sair qısamüddətli öhdəliklər		-		-
- Səhmdar	-		-	-
Sair uzunmüddətli öhdəliklər		**9 394 650**		**9 442 413**
- Səhmdar	*9 394 650*		*8 421 750*	
Borc şəklində alınmış pul vəsaitlərinin daxilolmaları	-	**972 900**	-	**1 221 750**
- Səhmdar	*972 900*	-	*1 221 750*	-
Borc şəklində alınmış pul vəsaitlərinin xaricolmaları	-	-	-	-
- Səhmdar	-	-	-	-

25. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Hesabat tarixindən sonrakı dövr ərzində Cəmiyyətdə hər hansı əhəmiyyətli dəyişiklik baş verməmişdir.